**UOT 327**

# CƏNUBİ QAFQAZ REGİONUNDA ABŞ-RUSİYA ZİDDİYYƏTLƏRİ

**Rəhman NƏSİRLİ** *

Məqalə redaksiyaya daxil olmuşdur: 13 iyun 2025; çapa qəbul edilmişdir: 16 iyul 2025; online-da çap edilmişdir: 23 sentyabr 2025.

Received: 13th of June, 2025; accepted: 16th of Jule, 2025; published online: 23th of September, 2025.

**Açar sözlər:** *Qarabağ müharibəsi, Transxəzər qaz kəməri, Nabukko qaz kəməri, Azərbaycan-Ermənistan münasibətləri, ATƏT-in Minsk qrupu*

## Giriş

Təqdim olunan məqalə soyuq müharibə dövrünün başa çatmasından sonra Şərqi Avropada yaranan yeni geosiyasi reallıqlar fonunda və müasir beynəlxalq münasibətlərdə Rusiya-ABŞ ziddiyyətlərinin öyrənilməsinə həsr olunub.

Məqaləmizin yazılması zamanı tarixi yanaşma, müşahidə, analitik və müqayisə metodlarından istifadə edilmişdir.

Cənubi Qafqaz regionu beynəlxalq siyasətdə strateji əhəmiyyətə malik olub, müxtəlif qlobal güclərin maraqlarının kəsişdiyi bir məkan kimi çıxış edir. Tarixi, coğrafi və iqtisadi amillər bu regionu ABŞ və Rusiya üçün vacib geosiyasi arenaya çevirib. Rusiya üçün Cənubi Qafqaz keçmiş SSRİ-nin bir hissəsi olmaqla yanaşı həm də onun təhlükəsizlik konsepsiyasında mühüm yer tutur. Moskva bu regionu "yaxın xaric" kimi qəbul edərək öz təsir dairəsini qorumağa çalışır. Digər tərəfdən ABŞ isə regionda demokratik islahatları dəstəkləmək, enerji marşrutlarını şaxələndirmək və regional təhlükəsizliyi təmin etmək məqsədilə müxtəlif strategiyalar həyata keçirir. Bu fərqli maraqlar ABŞ-Rusiya arasında mütəmadi geosiyasi rəqabətə səbəb olmuş və regionda geosi-yasi qarşıdurmanı gücləndirmişdir.

## 1. Qarabağ münaqişəsi

Cənubi Qafqazda iki dövlət arasındakı münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycana ərazi iddiaları ilə başlayıb. Azərbaycan 20% ərazisi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və ona yaxın 7 inzibati rayon Ermənistan Silahlı qüvvələri tərəfindən işğal altına alınıb. 1994-cü ilin mayında tərəflər arasında atəşkəs imzalanıb və Rusiya, Fransa, ABŞ kimi dövlətlərin həmsədrlik etdiyi ATƏT-in Minsk qrupunun vasitəçiliyi altında uğursuz sülh danışıqlarına başlanılıb. İşğal altında olan Azərbaycan ərazilərinin qeyd-şərtsiz boşaldılması haqda BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamə Ermənistan tərəfindən icra edilməmiş olaraq qalır.

1991-ci ildə SSRİ dağıldıqdan sonra keçmiş sovet respublikaları arasında yeni siyasi və iqtisadi əlaqələri tənzimləmək üçün 1991-ci ilin dekabrında Müstəqil Dövlətlər Birliyi yaradıldı. Azərbaycan ilk mərhələdə bu quruma qoşulmaqdan imtina etdi. Bu qərar Rusiya ilə münasibətlərdə müəyyən gərginliyə səbəb oldu və Moskva Bakıya qarşı

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* rehmannesirli1307@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.4.023**

təzyiqlərini artırdı. H.Əliyev Rusiyanın Azərbaycana təzyiqlərini nəzərə alaraq MDB-yə qoşulmaq qərarına gəldi. 24 sentyabr 1993-cü ildə Azərbaycan MDB-yə rəsmi üzv oldu. Bu addım Rusiya ilə münasibətlərin normallaşmasına və Azərbaycanın təhlükəsizlik maraqlarını qorumağa yönəlmişdi.

ATƏT 1992-ci ildən Qarabağ münaqişənin həlli üçün Minsk qrupunu yaratmış, lakin 1994-cü ildən sonra bu qrupun rolu artmışdı. Minsk qrupuna ABŞ, Rusiya, Fransa, Türkiyə, Almaniya, İtaliya, Belarus, Finlandiya, İsveç, Ermənistan və Azərbaycan daxil idi. 1995-ci ildən etibarən ATƏT sülh prosesində daha aktiv rol oynamağa başlasa da, Rusiya münaqişənin təkbaşına həll edilməsinə üstünlük verdiyindən Qərbin prosesə müdaxiləsini məhdudlaşdırmağa çalışırdı.

Azərbaycanın ATƏT-lə münasibətlərində 1996-cı il 2-3 dekabr tarixlərində keçirilən Lissabon sammiti mühüm əhəmiyyət kəsb edir. Zirvə toplantısının bəyannaməsində öz əksini tapmış müddəalardan biri Ermənistan-Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsinin həlli prinsiplərini özündə ehtiva edən 20-ci maddə Ermənistan tərəfinin etirazına səbəb oldu. Ermənistan həmin maddəyə veto qoydu. Azərbaycan Prezidenti H.Əliyev isə həmin maddənin bəyanatın mətnindən çıxarılmasına qəti etirazını bildirərək sammitin bütün sənədlərinə veto qoyacağını bildirdi. 20-ci maddə Dağlıq Qarabağ münaqişəsinin üç prinsip əsasında həll edilməsinin mümkünlüyünü göstərirdi:

- Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün toxunulmazlığı;
- Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində öz müqəddəratını təyinetmə hüququ əsasında muxtariyyət və özünüidarə statusunun verilməsi;
- Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunması.

Bu görüş Azərbaycanın diplomatik müstəvidə əldə etdiyi çox mühüm uğur idi. Əvvəla Azərbaycan bütün dünyanın diqqətini Qarabağ münaqişəsinə yönəltməyə nail olmuşdu. Dünyanın problemə münasibəti heç də obyektiv məlumatlar əsasında formalaşmamışdı. Azərbaycan Lissabon sammitində Ermənistanın və erməni lobbisinin uzun müddətdən bəri apardığı təbliğat kampaniyasının nəticələrini bir günün içərisində dəyişməyə nail oldu (5).

2001-ci il aprelin 3-7-də ABŞ-ın Florida ştatının Ki-Vest şəhərində ATƏT-in himayəsi və ABŞ dövlət katibi K.Pauellin iştirakı ilə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü təşkil olundu. Görüşdə bəyanatla çıxış edən H.Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərinə – Rusiyaya, ABŞ-a, Fransaya müraciət edərək onları silahlı münaqişənin aradan qaldırılması və möhkəm sülh yaradılması üçün öz səylərini fəallaşdırmağa çağırmışdır (6).

2003-cü ilə qədər Azərbaycan Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində həllini tələb etsə də, Ermənistan işğal etdiyi ərazilərdə status-kvonu qorumağa çalışıb. 2003-cü idə Azərbaycanda hakimiyyət dəyişikliyi baş verdi. İ.Əliyev prezident seçildi. 2004-cü ildə Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşdırma siyasətini davam etdirmişdir. Bu addım Azərbaycan tərəfindən ciddi etirazla qarşılanmışdır. Ermənistan hökuməti işğal edilmiş Azərbaycan ərazilərinə yalnız Ermənistandan deyil, böyük erməni diasporasının yaşadığı və daxili qeyri-sabitliyə məruz qalmış olan Yaxın Şərq ölkələrindən əhali köçürürdü. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasəti ilə BMT Təhlükəsizlik Şurasının (822 (1993), 853 (1993), 874 (1993), 884 (1993)), Baş Assambleyanın qəbul etdiyi qətnamələri və beynəlxalq humanitar hüququ pozmuşdur (5).

2006-cı ildə Azərbaycan prezidenti İ.Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ərazi bütövlüyünün qorunmasının vacibliyini vurğulayaraq kompromisə getməyəcəyini bəyan etmişdir. O, Azərbaycanın işğal olunmuş torpaqlarının sülh yolu ilə qaytarılmaması halında hərbi əməliyyatların başlanılmasının mümkünlüyünü ifadə etmişdir.

Həmin dövrdə ATƏT-in Minsk qrupu tərəfindən təqdim edilən sülh təklifləri çərçivəsində Dağlıq Qarabağın statusunun müəyyən olunması üçün referendum keçirilməsi təklif edilmişdir. Lakin prezident İ.Əliyev Azərbaycanın ərazi bütövlüyünün pozulmasına səbəb ola biləcək hər hansı referenduma qarşı çıxmış və bu cür təklifləri qəbul etməyəcəyini bildirmişdir. 2007-ci ilin noyabr ayında ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən Azərbaycan və Ermənistan rəhbərlərinə Madrid prinsipləri adlı sülh planı təqdim olundu. Madrid prinsipləri 6 əsas maddədən ibarət idi və münaqişənin həlli üçün mərhələli yanaşmanı nəzərdə tuturdu:

- Dağlıq Qarabağ ətrafında olan rayonların Azərbaycanın nəzarətinə qaytarılması;
- Dağlıq Qarabağa keçid statusun verilməsi, onun təhlükəsizliyinin təmin edilməsi;
- Ermənistanla Dağlıq Qarabağı birləşdirən dəhlizin yaradılması;
- Qaçqın və məcburi köçkünlərin öz torpaqlarına qayıtması;
- Sülhməramlı əməliyyatları nəzərdə tutan beynəlxalq təhlükəsizlik təminatının verilməsi (5).

Azərbaycan Madrid prinsiplərinin bəzi müddəalarını qəbul etsə də referendum məsələsinə qəti şəkildə qarşı çıxırdı. Rəsmi Bakı Dağlıq Qarabağın Azərbaycanın suveren ərazisi olduğunu bildirirdi və münaqişənin yalnız ərazi bütövlüyü çərçivəsində həll edilə biləcəyini vurğulayırdı. Ermənistan Madrid prinsiplərini şərti şəkildə qəbul etsə də, Dağlıq Qarabağın statusunun referendum yolu ilə müəyyən olunmasını vacib şərt kimi irəli sürürdü. 2010-cu ildə Azərbaycan rəhbərliyi Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasının bölgədə təhlükəli vəziyyətə səbəb olacağını vurğulayaraq hərbi variantın da mümkün olduğunu bəyan etmişdir. Prezident İ.Əliyev münaqişənin sülh yolu ilə həllinə üstünlük verdiklərini lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən danışıqların nəticəsiz qaldığını bildirmişdir. 2010-cu ilin iyun ayında Tərtər rayonunun Çaylı kəndi yaxınlığında Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında silahlı toqquşma baş vermişdir. Bu hadisə bölgədə gərginliyin artdığını və münaqişənin hər an yenidən alovlana biləcəyini göstərmişdir. ATƏT-in Minsk qrupu həmsədrləri və digər beynəlxalq təşkilatlar tərəfləri təmkinli olmağa və münaqişənin sülh yolu ilə həlli üçün danışıqları davam etdirməyə çağırmışdır. 2010-cu il martın 6-da həmsədrlər R.Bradtke, B.Fassier və Y.Merzlyakov birgə bəyanat yaymışlar. Bu bəyanatda həmsədrlər Parisdə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşərək münaqişənin sülh yolu ilə həlli istiqamətində müzakirələr aparmış və tərəfləri təmkinli olmağa çağırmışlar (10).

Münaqişə hər iki tərəfi də mütləq həll yolu kimi görülən müharibəyə sövq etdi. 2016-cı ilin  aprel ayında tərəflər arasında Aprel döyüşləri adlanan toqquşma baş verdi. Döyüşlər Azərbaycan ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər azad olundu.

2016-cı ilin 2-5 aprel tarixlərində baş verən dördgünlük müharibə Ermənistan və Azərbaycan arasında 1994-cü ildə imzalanan Bişkek atəşkəsindən sonra ən böyük hərbi toqquşma oldu. Bu döyüşlər status-kvonun artıq uzun müddət davam edə bilməyəcəyini və hərbi eskalasiyanın qaçınılmaz olduğunu göstərdi.

2018-ci ildə Ermənistanda baş verən siyasi dəyişikliklər və hökumət dəyişikliyi Qarabağ münaqişəsi, Azərbaycan-Ermənistan münasibətləri və regionda ümumi geosiyasi dinamika üçün mühüm təsirə malik oldu. 2018-ci ilin aprel-may aylarında Ermənistanda genişmiqyaslı etirazlar başladı. Etirazların lideri müxalifətçi siyasətçi N.Paşinyan idi. May ayında S.Sarkisyan istefa verdi və N.Paşinyan baş nazir oldu. N.Paşinyan

danışıqlar prosesində Dağlıq Qarabağın erməni icmasının da birbaşa iştirakını təklif edərək, danışıqlar formatının dəyişdirilməsini irəli sürmüşdür. Bu təklif Azərbaycan tərəfindən rədd edilmişdir (15).

2020-ci ilin iyul ayında Ermənistan və Azərbaycan arasında Tovuz rayonu istiqamətində hərbi toqquşmalar baş vermişdir. Bu döyüşlərdə əsnasında Azərbaycan ordusundan general-mayor P.Həşimov və polkovnik İ.Mirzəyev şəhid olmuşdur. Bacarıqlı müdafiə nəticəsində Azərbaycan ordusu heç bir ərazi itkisinə yol verməmiş və düşmənin hücumları dəf edilmişdir. Bu hadisələr Azərbaycanın hərbi doktrinasını yenidən nəzərdən keçirməsinə və müharibə hazırlığını sürətləndirməsinə səbəb oldu. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri cəbhəboyu Azərbaycan Ordusunun mövqelərini və mülki yaşayış məntəqələrini ağır artilleriya atəşinə tutmuşdur. Nəticədə həm hərbi qulluqçular həm də dinc sakinlər arasında itkilər olmuşdur. Bu təxribatlar Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başlamasına səbəb oldu.

Azərbaycan Ordusunun sentyabrın 27-də başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək ümumilikdə 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Bu dünyanın müasir hərb tarixində misli görünməmiş uğurlu hərbi əməliyyat idi. Ermənistan ordusu demək olar ki, tamamilə məhv edildi. Azərbaycan Milli Ordusu cəmi 44 gün ərzində ən müasir döyüş silahlarını tətbiq etməklə yüksək peşəkarlıq nümayiş etdirdi (4).

2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında üçtərəfli bəyanat imzalandı. Bu bəyanata əsasən:

- Ermənistan işğal altında saxladığı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytardı;
- Qarabağda müvəqqəti olaraq Rusiya sülhməramlı qüvvələri yerləşdirildi;
- Ermənistanla Qarabağ arasında Laçın dəhlizi, Azərbaycanla Naxçıvan arasında isə Zəngəzur dəhlizinin açılması nəzərdə tutuldu (13).

16 noyabr 2021-ci ildə Ermənistan silahlı qüvvələri Kəlbəcər və Laçın rayonları istiqamətində genişmiqyaslı təxribat törətmişdir. Avqust 2022-ci ildə Azərbaycan və Ermənistan qüvvələri arasında sərhəd boyunca toqquşmalar baş verdi. 2023-cü ilin sentyabr ayında Azərbaycan tərəfindən həyata keçirilən antiterror tədbirləri nəticəsində Ermənistanın qondarma rejimi zərərsizləşdirilmiş və işğaldan azad olunan Qarabağ bölgəsində Azərbaycanın suverenliyi tam bərpa olunmuşdur.

2023-cü ilin may ayında ABŞ Dövlət Departamenti Azərbaycanın xarici işlər naziri C.Bayramov və Ermənistanın xarici işlər naziri A.Mirzoyanı ikitərəfli sülh danışıqları üçün qəbul etmişdir. İkitərəfli və üçtərəfli müzakirələrdən sonra tərəflər çətin məsələlərin həllində müəyyən irəliləyişlər əldə etmişdilər.

2024-cü ildə Azərbaycan və Ermənistan arasında bir neçə mühüm görüş keçirilib. Əsasən Avropa İttifaqı, ABŞ və Rusiyanın vasitəçiliyi ilə baş tutan görüşlərdə sülh danışıqları davam etdirilib. Avqustun 30-da Azərbaycan və Ermənistan arasında sərhədin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında əsasnamə imzalanıb. May ayında keçirilən sərhədin delimitasiyası üzrə görüşdə 12,7 km-lik yeni sərhəd xətti müəyyən edilmiş və Azərbaycanın Qazax rayonunun dörd kəndi üzrə məsələlər razılaşdırılmışdır (16).

2024-cü ilin may ayında Ermənistanın Baş naziri N. Paşinyan Azərbaycanla sülh müqaviləsinin noyabr ayına qədər imzalana biləcəyini bildirmişdir.

Lakin 2024-cü ilin sonuna qədər sülh müqaviləsi imzalanmamışdır. 2025-ci ilin yanvar ayında ABŞ və Ermənistan arasında strateji tərəfdaşlıq sazişi imzalanmışdır. Bununla belə 2025-ci ildə sülh müqaviləsinin imzalanması üçün səylər davam etdirilir. Milli Məclisin deputatı A.Badamov 2025-ci ilin Ermənistanla Azərbaycan arasındakı münasibətlərin normallaşdırılması baxımından əhəmiyyətli dövr olacağını qeyd etmişdir (11).

## 2. Regionda Amerika-Rusiya ziddiyyətləri

1991-ci ildən etibarən iki gücün bu bölgədə rəqabəti əsasən siyasi, iqtisadi və hərbi aspektlərdə özünü göstərmişdir. 1991-ci ilin dekabrında Sovet İttifaqının dağılması ilə Cənubi Qafqazda yeni müstəqil dövlətlər Azərbaycan, Ermənistan və Gürcüstan yaranmağa başladı. ABŞ Cənubi Qafqazda demokratiyanın və bazar iqtisadiyyatının inkişafını dəstəkləyirdi. Əsas məqsəd bu dövlətləri Qərb strukturuna inteqrasiya etmək idi. Rusiya yeni müstəqil Cənubi Qafqaz dövlətlərini öz yaxın xarici siyasətində saxlamağa və regionda təsirini davam etdirməyə çalışırdı. 1994-cü il yanvarın 10-11-də NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Brüsseldə görüşü keçirildi. Bəyanatın 21-ci bəndində NATO-nun üzvü olan ölkələr Cənubi Qafqazdakı vəziyyət haqqında öz mövqelərini bildirdilər (1).

1990-cı illərin əvvəllərində Sovet İttifaqının dağılması ilə paralel olaraq Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi kəskinləşdi. 1988-ci ildən başlayan bu münaqişə 1991-1994-cü illərdə hərbi əməliyyatlara çevrildi. Ermənistanın Rusiya ilə yaxın hərbi və siyasi əlaqələri, Azərbaycanın isə Qərb ilə əlaqələrini inkişaf etdirməyə çalışması bu münaqişənin mürəkkəbliyini artırdı. ABŞ münaqişəyə diplomatik yanaşma sərgiləyərək, ATƏT-in Minsk qrupunun fəaliyyətini dəstəklədi. Lakin ABŞ-ın diplomatik təşəbbüsləri münaqişəni bitirmədi və hər iki tərəf arasında gərginlik davam etdi. ABŞ Konqresi tərəfindən erməni lobbisinin təsiri ilə 1992-ci ildə qəbul edilən 907-ci düzəliş Azərbaycana Amerikanın birbaşa yardımını yasaqlayan düzəlişdir. Sənəd 2001-ci il oktyabrın 24-də ABŞ-ın beynəlxalq terrorizmlə mübarizədə Azərbaycanla əməkdaşlığı fonunda dayandırılmışdı (8). 1994-cü ildə atəşkəs razılaşması əsasən Rusiyanın vasitəçiliyi ilə əldə olundu. Gürcüstanda müstəqillik qazandıqdan sonra ciddi daxili qeyri-sabitlik içərisində idi. 1992-ci ildən başlayaraq Gürcüstanda baş verən Abxaziya və Cənubi Osetiya münaqişələri regiondakı gərginliyi artırırdı.

Bu münaqişələrə müdaxilə edən Rusiya Abxaziyanı və Cənubi Osetiyanı dəstəklədi. Bu vəziyyət ABŞ-ın Cənubi Qafqazdakı təsirini azaltmağa və Rusiyanın strateji maraqlarını gücləndirməyə yönəlmişdi.

1990-cı illərin sonlarında Cənubi Qafqazın enerji resurslarını dünya bazarına çıxarmaq üçün böyük layihələr həyata keçirilməyə başlandı. Azərbaycanın neft ehtiyatlarının Avropaya daşınması məqsədilə 1999-cu ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin ilkin mərhələsinə başlanıldı. Bu layihə ABŞ və Qərbin strateji maraqlarının bir hissəsi olaraq Rusiyanın enerji monopoliyasını sarsıtdı. 1998-ci il oktyabrın 29-da ulu öndər H. Əliyev Ankarada Türkiyə və Gürcüstanın prezidentləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşa edilməsi haqqında ilk Bəyannaməni imzaladı. Aparılan tədqiqatlar və danışıqlar 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə görüşü zamanı ABŞ-ın keçmiş prezidenti B.Klintonun iştirakı ilə Azərbaycan, Gürcüstan, Türkiyə prezidentləri tərəfindən xam neftin Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə nəql edilməsinə dair hökumətlərarası sazişin imzalanmasına imkan verdi.

XXI əsrin ilk dövründə enerji resursları və onların marşrutları geosiyasi rəqabətin əsas elementlərindən birinə çevrildi. Xüsusilə, Xəzər regionu qlobal güclər olan ABŞ, Rusiya, Avropa İttifaqı  və Çin arasında strateji mübarizənin əsas mərkəzi oldu.

Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin 2006-cı ildə istismara verilməsi ilə Azərbaycan nefti Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına nəql olunmağa başladı. Rusiya Bakı-Tbilisi-Ceyhan kəmərinin əhəmiyyətini azaltmaq üçün Azərbaycan neftinin əsas ixrac istiqaməti kimi Bakı-Novorossiysk kəmərini önə çəkməyə çalışdı. Bakı-Novorossiysk kəməri Xəzər dənizində hasil olunan Azərbaycan neftinin Rusiya ərazisindən keçərək Qara dəniz sahilində yerləşən Novorossiysk limanına çatdırılmasını təmin edən strateji əhəmiyyətli boru kəməri idi. Rusiya 2006 və 2009-cu illərdə Ukraynaya qaz nəqlini dayandıraraq Avropaya enerji tədarükü üzərində siyasi təsirini artırmağa

çalışdı. Rusiya "Şimal Axını" və "Cənub Axını" layihələri ilə Avropanı öz enerjisinə daha çox bağlamağa çalışırdı.

ABŞ və Avropa ölkələri Rusiyadan enerji asılılığını azaltmaq məqsədilə "Nabukko" qaz kəməri layihəsini dəstəklədi. Nabukko layihəsi Xəzər regionu və Yaxın Şərqdən Avropaya təbii qaz nəql etməyi planlaşdıran bir təşəbbüs idi. Layihənin məqsədi Avropanın Rusiya qazından asılılığını azaltmaq və enerji təchizatını şaxələndirmək idi. Lakin müxtəlif texniki, maliyyə və geosiyasi səbəblərdən layihə həyata keçirilməmişdir.

Həmçinin, Türkmənistan, Qazaxıstan və Azərbaycan kimi Xəzər hövzəsi ölkələrinin Avropaya qaz ixracını təmin etmək üçün Transxəzər qaz kəməri planlaşdırıldı. ABŞ Gürcüstan və Türkiyəni əsas tranzit ölkələr kimi dəstəkləyərək enerji nəqlinin diversifikasiyasına çalışdı. Transxəzər qaz kəməri layihəsi Türkmənistan qazının Xəzər dənizinin altından keçərək Azərbaycan vasitəsilə Avropaya nəqlini nəzərdə tuturdu (14).

Nəticə olaraq bu kəmərlər Rusiyanın enerji dominantlığına alternativlər yaratdı və Azərbaycanı qlobal enerji bazarında daha əhəmiyyətli oyunçuya çevirdi. Rusiya Avropa qaz bazarındakı təsirini qorumaq üçün yeni layihələr irəli sürsədə lakin Qərbin diversifikasiya səyləri davam etdi.

NATO-da regionda fəaliyyətini artırmaq üçün bir sıra tədbirlər görürdü. XXI əsrin başlanğıcında dünyadakı əsas problem terrorizmlə mübarizə idi. NATO-nun terrorçuluqla mübarizə üzrə səyləri tərəfdaş ölkələr tərəfindən dəstəklənirdi. Tərəfdaşlarında Beynəlxalq terrorçuluqla mübarizəyə cəlb ediləsini təmin etmək məqsədilə 2002-ci il Praqa Sammitində Terrorçuluğa qarşı Əməliyyat planı qəbul edilmişdir (9).

2014-cü ildə başlayan Ukrayna böhranı Cənubi Qafqaz regionunda yeni bir mərhələnin başlanğıcını qoydu. Bu dövrdə Rusiya Ukraynadakı hərbi əməliyyatlarına paralel olaraq Cənubi Qafqazda da təsirini artırmağa çalışdı. 2015-ci ildə Ermənistan Rusiya rəhbərliyindəki Avrasiya İqtisadi Birliyinə üzv oldu. Bu addım Ermənistanın iqtisadi və siyasi olaraq Rusiyadan asılılığını daha da artırdı. Gürcüstan Ukrayna böhranını diqqətlə izləyərək öz ərazi bütövlüyü və təhlükəsizliyi ilə bağlı narahatlıqlarını artırdı. Tbilisi Avropa İttifaqı və NATO ilə inteqrasiyanı sürətləndirmək üçün addımlar atdı. 2014-cü ildə Gürcüstan Avropa İttifaqı ilə Assosiasiya Sazişi imzaladı və NATO ilə əməkdaşlığını gücləndirdi (7).

2020-ci ildəki İkinci Qarabağ müharibəsi regiondakı qüvvələr balansını dəyişdi. 2020-ci ilin sentyabrında başlayan və 44 gün davam edən II Qarabağ Müharibəsi nəticəsində Azərbaycan ərazi bütövlüyünü bərpa edərək işğal altında olan torpaqlarını azad etdi. Müharibədən sonra Rusiya sülhməramlı qüvvələrini Qarabağda yerləşdirdi.

ABŞ Xarici Siyasət Mərkəzinin direktoru L.Koffi deyirdi ki, Azərbaycanın qələbəsi Cənubi Qafqaz və Xəzər regionunda amerikalı siyasətçilərin xüsusi diqqət yetirməli olduğu yeni geosiyasi reallıqlar yaratdı. Azərbaycan ABŞ-ın bir çox geosiyasi maraqlarının üst-üstə düşdüyü regionda yerləşir (5).

2022-ci ildə baş verən Rusiya-Ukrayna müharibəsindən sonra ABŞ-ın Gürcüstan və Azərbaycanla hərbi-siyasi əlaqələri genişləndi. Cənubi Qafqazda ABŞ-Rusiya ziddiyyətləri əsasən enerji, təhlükəsizlik və geosiyasi təsir uğrunda davam edir. ABŞ regionda NATO əməkdaşlığını gücləndirmək və enerji marşrutlarını qorumaq istəyir. Rusiya isə hərbi və iqtisadi mexanizmlərlə təsirini saxlamağa çalışır.

**Nəticə**

Gələcəkdə regionla bağlı düşüncələrimizə əsasən, Rusiya-Ukrayna müharibəsi bitdikdən sonra yenidən Cənubi Qafqaz bölgəsinə yönələcək. Baş verən müharibə Rusiya iqtisadiyyatına olduqca mənfi təsir göstərməsi səbəbindən Rusiya region ölkələriylə əməkdaşlığa ehtiyac duyur. Baş verən Ukrayna-Rusiya müharibəsi Azərbaycanın enerji resurslarının dəyərini artıracaq. Ermənistanda Qərbyönümlü hakimiyyət olan Nikol

Paşinyan hökuməti ya Rusiya ilə razılaşmaq məcburiyyətində qalacaq yada çevriliş nəticəsində hakimiyyətdən uzaqlaşdıracaq. Rusiyanın zəifləməsinin birinci qazananı olan Amerika isə regionda Fransa kimi qərb dövlətlərinin təsirini məhdudlaşdıraraq regiondakı əhatə dairəsini genişləndirəcək. Xüsusilə Amerikanın hazırki prezidenti Donald Trump dünyadakı əsas münaqişələr olan Ukrayna və Fələstin münaqişəsini həll etdikdən sonra bölgəyə yönələcək. Ukraynanın NATO-ya qoşulma ümidlərinin qeyri-real olduğunu görən Ermənistan və Gürcüstan NATO-ya qoşulmaqla bağlı siyasi kurslarına əhəmiyyətli şəkildə dəyişiklik edəcəklər. Cənubi Qafqazın hər üç dövləti bir-birilə daha sıx əməkdaşlıq edərək Rusiya-ABŞ arasında balanslı siyasət yeridəcək.

## ƏDƏBİYYAT


1. Almaz Ə. NATO-da hərbi siyasi islahatlar və Azərbaycan Respublikası. Bakı: Yeni Poliqrafist, 2012, 279 s.
2. Azərbaycan Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası: ATƏT-in Lissabon zirvə görüşü. (https://eres.preslib.az/site/historical/page/az/pv0JItm).
3. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi: İşğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma. (https://mfa.gov.az/az/category/ermenistanin-azerbaycana-qarsi-tecavuzunun-fesadlari/ isgal-olunmus-erazilerde-qanunsuz-meskunlasdirma).
4. AzərTac. Vətən müharibəsinin başladığı gün və Anım Günüdür. (https:// azertag. az/ xeber/27_sentyabr_veten_muharibesinin_basladigi_gun_ve_anim_gunudur-3200 894).
5. Cənubi Qafqaz təqdiqatları: Mövcud vəziyyət, problemlər və perspektivlər\\. Respublika elmi konfransı. Bakı: AMEA Qafqazşünaslıq İnstutu, 2024. (https:// scien ce.gov. az/ az/ news/ open/ 30 447).
6. Heydər Əliyev irsini Araşdırma Mərkəzi. Bakı: Şərq-Qərb, 2013, 185 s. (https://lib.aliyev-heritage.org/az/46038850.html).
7. İnfocenter.gov.ge\\Assosiatilik sazişi (https://infocenter.gov.ge/az/eu-georgia/association-agreement).
8. Modern.az\\ 907-ci düzəlişin bərpası ABŞ-ın özünə ziyan vuracaq-PROQNOZ (https://modern.az/dunya/276815/907-ci-duzelisin-berpasi-abs-in-zune-ziyan-vuracaq-proqnoz).
9. NATO-nun yeni strateji konsepsiyası və Cənubi Qafqazda təhlükəsizlik çağırışları. Beynəlxalq konfransın məruzə və tezis toplusu. Bakı, 2013, 94 s. (https://www. lhri.az/az/articles/nato-new-strategic-concept-and-security-challenges-in-south-caucasus-reports-and-thesis).
10. Niftəliyev E. Vyana Azərbaycan. 2010, 7 mart, s.1. (https://anl.az/down/ meqale/ azerbay can/2010/mart/110937.htm).
11. Oxu.az\\2025-ci ildə Azərbaycanla Ermənistan arasında sülh sazişi imzalanacaq? (https://oxu.az/siyaset/2025-ci-ilde-azerbaycanla-ermenistan-arasinda-sulh-sazisi-imzalana caq).
12. Paşayeva Q. Müasir dövrdə Avropada və Cənubi Qafqazda regional münaqişələr və onların nizamlanması ətrafında diplomatik siyasi mübarizə. Bakı: Elm və Təhsil, 2013, 78 s.
13. President.az\\Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş Naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı. (https://president. az/az/articles/ view/ 45 923).
14. Ses qazeti.az\\Avropanın ümidi - Transxəzər – Rakurs (https://sesqa zeti.az/ news/ poli ti cs/ 1231318.html).
15. Sonxeber.az\\Paşinyanın Qar4
16. abağ siyasətini Azərbaycanda kim dəstəkləyir? (https://sonxeber.az/128571/pasinyanin-qarabag-siyasetini-azerbaycanda-kim-destekleyir).

17. Ibrahimova G.,South Caucasus after the 44-day War /II international scientific conference. "Development of science in the XXI century". Dortmund, Germany. 29-30.12.2022. 58 p.
18. Ibrahimova, G., & Shirinov, E. (2025). Cold war of the era geopolitics: global power struggle. Scientific Collection «InterConf+», (59(256), 106–116. (https://doi.org/10.51582/interconf.19-20.07.2025.013https://conference-w.com/wp-content/uploads/2023/01/Ger.D-2 930122022.pdf).
19. https://az.trend.az/azerbaijan/politics/3903451.html.

***Резюме***

***Рахман Насирли***

***Конфликт между США и Россией в регионе Южного Кавказа***

Регион Южного Кавказа является одним из главных центров стратегического соперничества между США и Россией. Хотя Россия стремилась сохранить свое влияние в регионе после распада СССР, Соединенные Штаты стремились ослабить российское доминирование, поддерживая независимость региональных государств и их интеграцию в Запад. В этом контексте продолжалась борьба за влияние в Грузии, Азербайджане и Армении. Россия использовала различные средства для защиты своих интересов в регионе. Еще одним вопросом, приведшим к конфликту сторон, стал энергетический фактор. Энергетические ресурсы Азербайджана имеют стратегическое значение для США и России. Вашингтон стремится освободить Европу от зависимости от России, диверсифицируя региональные энергетические маршруты с помощью таких проектов, как нефтепровод Баку-Тбилиси-Джейхан, Nabucco и Транскаспийский трубопровод. Москва, с другой стороны, пытается ограничить доступ азербайджанского газа в Европу в рамках своей стратегии «энергетического оружия». С другой стороны, Армения пытается проводить сбалансированную политику с США и Европой, сохраняя при этом военный и экономический союз с Россией. В 2020 году после 44-дневной войны на Южном Кавказе сложилась новая геополитическая ситуация, и в Карабах были введены российские миротворцы. Хотя Соединенные Штаты работают в рамках Минской группы ОБСЕ над дипломатическим урегулированием конфликта, влияние Вашингтона в регионе ослабло. После карабахской войны армянская сторона установила более тесные связи с Западом. В целом конкуренция между США и Россией на Южном Кавказе продолжается в политической, экономической и сфере безопасности. В то время как США поддерживают интеграцию стран региона в Запад, Россия использует военные и политические средства для защиты своей сферы влияния. Эти противоречия оказывают серьезное влияние на будущую безопасность и стабильность региона. Также ожидается, что после окончания украинского конфликта Россия будет иметь большее влияние на политические события в регионе Южного Кавказа.

**Ключевые слова:** *Карабахская война, Транскаспийский газопровод, газопровод Набукко, азербайджано-армянские отношения, Минская группа ОБСЕ*

***Summary***

***Rahman Nasirli***

***USA-Russian Conflicts in the South Caucasus Region***

The South Caucasus region is one of the main centers of strategic competition between the United States and Russia. Although Russia tried to maintain its influence in the region after the collapse of the USSR, the United States wanted to weaken Russian dominance by supporting the independence of the regional states and their integration into the West. In this context, the struggle for influence over Georgia, Azerbaijan, and Armenia continued. Russia used various means to protect its interests in the region. Another issue that brought the parties into conflict was the energy factor. Azerbaijan's energy resources are of strategic importance to the United States and Russia. Washington has tried to save Europe from Russia's dependence by diversifying the region's energy routes with projects such as the Baku-Tbilisi-Ceyhan oil pipeline, Nabucco, and the Trans-Caspian. Moscow, on the other hand, is trying to limit the access of Azerbaijani gas to Europe within the framework of its "energy weapon" strategy. On the other hand, Armenia is trying to maintain its military and economic alliance with Russia and pursue a balanced policy with the United States and Europe. In 2020, after a 44-day war, a new geopolitical situation emerged in the South Caucasus and Russian peacekeepers were deployed in Karabakh. Although the US has been

working within the OSCE Minsk Group to resolve the conflict diplomatically, Washington's influence in the region has weakened. After the Karabakh war, the Armenian side has established closer ties with the West. Overall, the competition between the US and Russia in the South Caucasus continues in the political, economic and security spheres. While the US supports the integration of the countries of the region into the West, Russia uses military and political means to protect its sphere of influence. These contradictions seriously affect the future security and stability of the region. It is also expected that Russia will have a greater influence on political events in the South Caucasus region after the end of the Ukrainian conflict.

**Key words:** *Karabakh War, Trans-Caspian gas pipeline, Nabucco gas pipeline, Azerbaijan-Armenia relations, OSCE Minsk Group.*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.